# *Alessandra ROKASALVO:* "Azərbaycanın böyük "yaşıl enerji" potensialı var"

**"Azərbaycanın neft kapitalını insan kapitalına çevirməsi strategiyası uğurludur. Neft və qaz gəlirləri bir çox beynəlxalq əhəmiyyətli layihələr, eləcə də "yaşıl iqtisadiyyat"a keçid üçün Azərbaycanın siyasətinə təkan verir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri BMT-nin İnkişaf Proqramının Azərbaycandakı təmsilçisi Alessandra Rokasalvo Bakıda keçirilən "Ambisiyanın artırılması, fəaliyyətin verilməsi: COP29 Dayanıqlı biznes forumu"nda deyib.

Alessandra Rokasalvo bildirib ki, Azərbaycanın "yaşıl enerji" sahəsində də beynəlxalq layihələri var: "Azərbaycan gələcəkdə Avropaya nəinki neft və qaz, eləcə də "yaşıl enerji" də ixrac edəcək. Bunun üçün Azərbaycanın böyük potensialı var".

O bildirib ki, ekologiya və iqlim dəyişikliyi ilə əlaqədar həyata keçirilən tədbirlər üçün maliyyə mənbələri lazımdır. "BMT-nin "Yaşıl İqlim Fondu" bu sahədə real xarakter daşıyan layihələrə dəstək göstərir.

Son günlər iqlim dəyişikliyi Pakistan, Hindistan, Birləşmiş Ərəb Əmirliklərində özünü daha qabarıq formada göstərdi. Təkcə Pakistanda 13 milyon əhali zərər çəkdi, insanların evləri ilə yanaşı, əkin sahələri də dağıldı. İqlim dəyişikliyi sərhəd tanımadığı üçün Pakistanda baş verənlərə də biganə qalmaq olmaz.

İqlim dəyişikliyinin, qlobal istiləşmənin qarşısı yalnız kollektiv formada birgə səylərlə alınmalıdır. Bunun üçün biznes subyektləri də fəal olmalı, "yaşıl enerji" sahəsinə sərmayə yatırmalıdırlar", - deyə o bildirib.

Azərbaycan.- 2024.- 18 may, № 103.- S.13.